# İSLAM HÜQUQU Və AZəRBAYCAN

*İnsan toplusu bir zərurətdir. Filosoflar bunu "insan təbiət etibarilə mədənidir" sözü ilə ifadə edirlər. Yəni, insanın digər insanlarla bərabər yaşaması, birlikdə olması vacibdir. Təbii ki, bu münasibəti tənzim edən qaydalar da lazımdır. Cəmiyyət insan üçün zəruri olduğu kimi qanun da cəmiyyətə lazımdır. Bu mənada, fərdlərin cəmiyyətlə münasibətlərini nizamlayan, hüquqlarını göstərən qaydalar həmişə olmuşdur.*

İlahi hüquqların təməli Yaradanın fikrinə dayanır. Hər hansı canlı və cansız Allah tərəfindən yaradılmışdır. Bütün yaradılmışların möhtac olduğu şeyləri hazırlamaq, Allahın hikmət, rəhmət və alilik sifətlərinin ucalığındandır. İslamın öyrənilməsində müsəlman qanunlarının sistemləşdirilmiş toplusu olan şəriətin əsaslarını bilməyin birinci dərəcəli əhəmiyyəti böyükdür.

Müsəlman hüququ şəriətin tərkib hissəsidir. Şəriətdə kənd təsərrüfatı fəaliyyətinin normaları, icarə və torpaq rentasının tərtib edilməsi şərtləri müəyyənləşdirilir, yeyinti məhsullarının istehsalı və istehlakı, müsəlmanlardan və qeyri - müsəlmanlardan vergi alınması məsələləri, maliyyə və ticarət əməliyyatlarını tənzimləyən normalar aydınlaşdırılır.

Məhəmməd peyğəmbər müsəlman ərəb icmasının başçısı və islamın yayıcısı kimi bu yolda miladi tarixlə 610-cu ildən 632-ci ilə qədər fəaliyyət göstərmişdir. Peyğəmbər sağlığında müsəlman icmasını (ümmətini) ilahi göstərişlərə müvafiq olraq idarə edirdi. Lakin Məhəmməd peyğəmbər vəfat etdikdən sonra məlum oldu ki, Qurandaki əmrlər bütün dövlət məsələləri ilə ictimai münasibətləri həll etmək üçün kifayət etmir. Çünki elə ictimai münasibətlər meydana çıxmışdır ki, həmin münasibətləri nə Quranda göstərilən normalarla, nə də peyğəmbərin hədisləri, göstəriş və məsləhətləri ilə həll etmək mümkün olmamışdı. Peyğəmbərin vəfatından çox keçməmiş islamın iki qolu - sünnilik və şiəlik yaranmış və sonradan həmin qolların özündə də müxtəlif məzhəblər meydana çıxmışdır. Çünki islam dünyanın bir çox yerlərinə yayıldıqdan sonra müxtəlif yeni ictimai münasibətlərin həlli zərurətinin meydana çıxması, hər bir qolun, yəni sünnilik və şiəliyin ayrı - ayrı məzhəblərə bölünməsinə, məzhəb ardıcıllarının da hüquq məsələlərinin həllində ciddi fikir ayrılıqları yaratmalarına gətirmişdir. Müxtəlif dövrlərdə həmin məzhəblərin ardıcılları və məzhəblərin özləri müxtəlif olmuş, bəzi məzhəblər yarandığı vaxtdan öz mövcudiyyətini mühafizə etsə də başqa zamanın sınaqlarına davam gətirə bilməmiş, müəyyəm vaxtdan sonra öz ardıcıllarını itirərək mövcudiyyətinə son qoylumuş və ya ardıcılları tamamilə az olduğundan fəaliyyəti çox məhdudlaşmışdı.

İslamın sünni qolu dörd əsas dini - hüquqi məzhəb üzərində formalaşmışdır ki, həmin məzhəblər də öz yaradıcılarının adı ilə hənəfilik, malikilik, şafilik və hənbəlilik məzhəbləridir. Ümumiyyətlə, islamın məzhəblərə ayrılması müəyyən fikir ayrılığı yaratmışdır. Lakin qeyd etmək lazımdır ki, müxtəlif ictimai münasibətlərin, hüquqi məsələlərin həllində mü-

səlman hüquq məktəblərinin rolu danılmazdır. Dörd süni hüquq məktəbi ilə yanaşı, şiələrin mənsub olduğu cəfərilik məktəbi mötəbər sayılır.

İslamda ən geniş yayılmış hənəfilik məzhəbinin banisi imam əl-Əzəm kimi tanınan, mənşəcə türk olan Əbu Hənifə ibn Sabit (80/699-150/767) olmuşdur. Əbu Hənifənin "əl-Fiqh əl-Əkbər" (böyük fiqh), "əl-Alim və əl-Mütəəllim" (bilən və öyrənənlər) adlı əsərləri məşhurdur. Mənbələr bu dahi alimi eyni zamanda dərin etiqadlı şəxsiyyət və böyük iman sahibi kimi xarakterizə edirlər. Ona dəfələrlə qazi vəzifəsinin təklif edilməsinə baxmayaraq, o, kimə qarşı isə haqsızlıq edə biləcəyindən qorxaraq, bu vəzifədən imtina etmişdir. Son dərəcə mömin bir müsəlman olduğuna baxmayaraq, Əbu Hənifə Kufə hakimləri və Bağdad xəlifəsi tərəfindən cəzalandırılaraq əziyyətlərə düçar edilimiş və 68 yaşında öldürülmüşdür.

Adət hüququnun geniş tətbiqi, yerli şəraitin nəzərə alınması və bütün digər məzhəblər içərisində ən çox "dözümlülüyü" ilə fərqləndiyi üçün hənəfi məzhəbi IX əsrdən başlayaraq şimala və şərqə doğru genişlənmiş, Anadolu, Balkanlar, Şimali Qafqaz, Orta Asiya, Əfqanıstan, habelə, Hindistan və Çinin böyük bir hissəsində yayılmışdır. Türkiyə sultanlarının, Böyük Moğollar və Qızıl Orda xanlarının hənəfi məzhəbli olmaları da, bu məzhəbin yayılmasında əhəmiyyətli rol oynamışdır.

Malikilik məzhəbinin banisi imam Malik ibn Ənəs əl-Əshabi (93/712-179/795) Mədinədə dünyaya gəlmiş və ömrünün sonunadək burada yaşamışdır. Uşaq yaşlarından başlayaraq dini elmləri öyrənən Malik ibn Ənəsin təliminin əsasları məşhur "əl - Müvətta" ( hamı üçün anlaşıqlı ) əsərində şərh edilmişdir.

Malik ibn Ənəs də, öz fikirlərində əsasən hədisə və icmaya əsaslanmış, fərdi təfsirə çox nadir hallarda yol vermiş, rəy və qiyası qəbul etməmiş və istihsanı isə az hallarda qəbul etmişdir. Əbu Hənifədən fərqli olaraq, Malik ibn Ənəs hüquqi məsələlərin həllində qazinin və müftinin sərbəstliyini məhdudlaşdırmışdır.

Müsəlman dünyasında hənəfilikdən sonra ən geniş yayılmış məzhəb şafilikdir. Bu məzhəbin banisi Əbu Abdullah Məhəmməd ibn İdris əş-Şafii (150/767-204/820) Qəzzədə (Fələstin), qureyşlilərdən olan hərbçi ailəsində anadan olmuş və kiçik yaşlarından atasını itirmişdir. Bundan sonra anası ilə birgə Məkkəyə, ata qohumlarının yanına gəlmiş və burada görkəmli alimlərdən dərs almışdır. 20 yaşına çatdıqdan sonra Mədinə şəhərinə gələrək Malik ibn Ənəsin yanında təhsilini artırmışdır. 35 yaşından başlayaraq özünün məzhəbini təbliğ etməyə başlayan Şafii, maliki və hənəfi məzhəblərinin arasında orta yer tutaraq, bu iki məzhəbi barışdırmağa çalışmışdır. Şafiiyə görə islam hüququnun mənbələri Quran və Sünnədir. İcma isə o



zaman mənbə olur ki, onun tətbiqi narazılığa və ixtilifa səbəb olmasın. O, rəyə tamamilə etinasızlıq göstərir, qiyası isə arxa plana keçirirdi.

İslam hüquq məktəblərinin dördüncüsü isə hənbəlilik adlanır. Bu məktəbin banisi Abdulla Əhməd ibn Hənbəl əş-Şeybanidir (164/780-241/855). Onun hüquqi mühakimələrinin əsasını hədislər təşkil edir. Təsadüfi deyildir ki, "əl-Müsnəd" (istinad olunan, dayaq) əsərinə təxminən 30 mindən çox hədis daxildir. Əhməd ibn Hənbəl öz doktrinasında rəyin və qiyasın əhəmiyyətini tamamilə rədd etmişdir. A. Mets hənbəlilərin mühafizəkar cinah kimi son dərəcə fanatik islamçı olması, kişilərin qadınlarla küçəyə çıxmalarını qadağan etmələri və müğənni qadınları döydürmələri haqqında qeyd edir.

Müsəlmanların bu dörd mömin sisteminin banilərindən hər birinin müctəhidi mütləq, yəni bənzətmə (qiyas) əsasında mühakimə yeritmək prinsipini və işlətdiyi başqa metodları Quran tətbiq edərək, öz şəxsi rəyini (ictihad) ifadə etməyə mütləq iqtidarı olan alim adlandırırlar. Bu banilər fiqhin (müsəlman hüquq sisteminin) əsas prinsiplərini müəyyən etmişdilər. Bu prinsipdən çıxan nəticələri (füru) sonralar şərh edənlər isə mütləq müctəhid olmayıb, dini məktəblərdən birinin müctəhidi sayılırlar.

İslamın ikinci böyük qolu şiəlikdir. Şiəlik sözü ərəbcə firqə, qrup deməkdir. Şiəlik Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni Əli ibn Əbu Talibin xəlifəliyə gəlməsi uğrunda gedən mübarizə nəticəsində yaranmışdır.



Şiəliyin böyük qollarından biri cəfərilik məzhəbidir. Məzhəbin adı 6-cı şiə imamı Cəfər əs-Sadiqin (təxminən 700-765) adı ilə bağlıdır. Şiə rəvayətləri onun Abbası xəlifəsi Əbu Cəfər əl-Mənsuri tərəfindən zəhərlənərək öldürüldüyünü yazırlar.

VII əsrdə islamın problemlərin həllində mükəmməl və ümmumiləşdirici fikirlər ortaya qoyan Cəfər əs-Sadiq, eyni zamanda bidətçi cərəyanlara qarşı mübarizə aparmışdır. O, təsəvvüf tarixində də əhəmiyyətli yer tutmaqdadır. Mənbələr Cəfər əs-Sadiqin yüzlərlə kitab və məqalə yazdığı barədə məlumat verir.

Cəfərilik məzhəbini fiqh üsulu və hökm dəlilləri baxımından tədqiq edərkən bu məzhəb daxilində iki cərəyanın olduğu görünür: üsulilər və əxbarilər. Tədqiqatçılar tarixi inkişaf baxımından cəfərilik məzhəbini səkkiz dövrə ayırırlar və bu dövrlərdən biri də (altıncısı) Səfəvi dövrü hesab edilir.

Şiəliyin ən çox yayılmış qolu isə imamilikdir. İmamilər peyğəmbər nəslindən olan 12 imama inanıb onun ardınca getməyi, qarşıya çıxan məsələləri həll edəcək normalar Quranda və ya icmada olmadığı halda müctəhidin rəyinə əsaslanmağın zəruriliyini qəbul edirdilər. İmamın (ərəbcə qabaqda gedən) paklığına etiqad edir, beytülmala verilən əmlakın, vəqf mülkiyyətinin bir qismini peyğəmbər nəslindən olan seyidlərə verilməsini məqbul sayırlar.

Şiəliyin ən mürəkkəb qolu olan ismailiyyə müxtəlif təlimləri özündə birləşdirdiyi üçün ayrı - ayrı yerlərdə batinlik, məzdəkilik, qərəmətlik, təlimlik, mülhidilik və başqa adlar altında özünü göstərmişdir.

Şiəliyin zeydilik məzhəbi imaməti Əli və onun oğulları Həsən və Hüseynin üzərindən götürür. İmam həddi - büluğa çatmış, ağıllı, mömin, kəlamlı, yəni Üsul əd - Dini yaxşı bilən saleh və etibarlı şəxs olmalıdır.

Darül - islam (islam dünyası) müsəlmanların hakim mövqe tutduqları və qanunçuluğun bütövlüklə şəriətin hüquq normaları əsasında aparıldığı əraziləri əhatə edir.

Qeyd edək ki, Qafqaz ölkələrindən heç biri darül - islama ilhaq edilməmişdi və xilafətin bu ölkələrlə əlaqəsi darül - əhd səviyyəsində idi. İşğal olunmuş ərazilərdə ərəblərin əhaliyə münasibəti sonuncuların konfessional mənsubiyyətindən (atəşpərəst, xristian, buddist və ya yəhudi olmasından) daha çox, konkret şəraitə görə müəyyən olunurdu. Əksəriyyəti köçəri olan ərəblərin özləri, hələ yeni olan dini (islamı) lazımınca mənimsəmədiklərinə görə, əvvəllər Azərbaycan əhalisini islami qəbul etməyə məcbur etmirdilər. Yalnız sonralar Albaniya kilsənin zəifləməsi və könüllü islamlaşmanın güclənməsi ilə əlaqədar olaraq Azərbaycanda darül - islam qaydaları tətbiq edilir və burada xilafət canişinlərinin səlahiyyəti genişləndirilirdi.

Ərəblərin Azərbaycana ilk hücumları dövründə ərəb sərkərdələri ilə yerli əhali arasında müqavilələr bağlanırdı. Yerli əhalinin nümayəndəsi qismində müvafiq əyalətin mərzbanı, möbid və ya yepiskopu çıxış edirdi. Bağlanmış müqavilələrə görə, yerli əhali can vergisi şərtilə Xilafətin siyasi hakimiyyətini qəbul edirdi. İtaətin müqabilində yerli əhalinin həyatı, malı, mülkü, eləcə də din və adətləri toxunulmaz elan edilirdi. Lakin bağlanmış müqavilələrə baxmayaraq, atəşpərəst Cənubi azərbaycanlılar islamın verdiyi maddi və mənəvi üstünlüklərə görə yeni dini tez qəbul etdi. Əl-Bəlazurinin verdiyi məlumata görə, artıq xəlifə Əlinin dövründə Cənubi Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. 705-ci ildə Mehrani knyaz sülaləsinin varlığına son qoyduqdan sonra Albaniya özünün siyasi müstəqilliyini itirmiş və Arran vilayəti adı altında ərəblərin tam tabeliyinə keçmişdi.

Göründüyü kimi, islam dininin Azərbaycanda yayılması qeyri-bərabər şəkildə olmuşdu. Rusların 988-ci ildə xristianlığı qəbul etməsindən fərqli olaraq, bu hadisə konkret tarixdə qəbul edilmiş müəyyən aktla birdəfəlik baş verməmiş, uzun bir proses olmuşdur. Buna görə də, Azərbaycan hüquq tarixində islam hüququnun nə vaxtdan bərqərar olması barədə birmənalı fikir söyləmək mümkün deyildir. Digər tərəfdən, islam dininin Azərbaycanda yayılması, heç də, burada islam hüquq sisteminin hökmran mövqe tutması demək deyildir. Çünki ilkin dövrlərdə yerli əhalinin adətləri saxlanılır və ərəblərdən olan asılılıq yalnız siyasi xarakter daşıyırdı. Fəal surətdə islamlaşma isə daha sonralar həyata keçirilmişdi.

Bütün bu müddəalar göstərir ki, həqiqətən də Azərbaycanda islamlaşmanın ilk dövrlərində islam hüququ tətbiq edilməyə başlasa da, hələ geniş yayılmamış, müəyyən müddətə yerli adətlər, eləcə də adət hüququ saxlanmışdır.

Qeyd edildiyi kimi, VIII əsrdən başlayaraq islam dininin Azərbaycanda yayılması cəmiyyətdə yeni hüquq sisteminin təşəkkül tapması ilə müşayət olunurdu. Hüquqi şüurun və pozitiv hüquq yaradıcılığının qeyri-müəyyən inkişafı və pərakəndə səviyyəsi ilə xarakterizə olunan Azərbaycanda öz dövrünün ən mükəmməl hüquq sistemi sayılan islam hüququ hökmran mövqe tutmağa başladı.

*Beləliklə, islam hüquq sistemi orta əsrlərdən etibarən, Azərbaycanda hökmran yer tutmuş və bütövlükdə onun hüquq tarixinin böyük bir dövrünü səciyyələndirmişdir. Bu baxımdan Azərbaycan cinayət hüquq tarixinin tədqiq olunan dövrü islam cinayət və cəza hüququ kimi xarakterizə olunur.*

**Pərvin CABBARLI**